AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ XƏBƏRLƏRİ
Fizika-texnika və riyaziyyat elmləri seriyası, fizika və astronomiya 2019 №5



# AKADEMİK HƏŞİMOV ARİF MƏMMƏD OĞLU – 70

Akademik A.M.Həşimov elmin elektrofizika və yüksək gərginliklər texnikası sahəsində tanınmış alimdir.

A.M.Həşimov müasir elmin çox əhəmiyyətli istiqamətlərindən biri olan energetikanın fiziki-texniki problemləri sahəsində elmi-tədqiqatlar-mürəkkəb elektrikşəbəkələrində dissipativ faktorları, ifrat gərginliklərdən elektrotexniki avadanlıqları mühafizə edən və qısaqapanma cərəyanlarını məhdudlaşdıran qurğuları nəzərə almaqla elektromaqnit dalğa proseslərini hesablamaq üçün riyazi modellərin işlənib hazırlanmasını təşkil edir. O, ifrat gərginliklərin və qısaqapanma cərəyanların məhdudlaşdırılması üçün betel rezistorların əsasında qurulmuş qurğuların işlənib hazırlanmasında və tətbiqində, 110-500кB-lyq elektrik şəbəkələrin neytralının, qoruyucu rezistorlardan istifadə etməklə, optimal torpaqlanmasının texniki əsaslarının yaradılmasında iştirak etmış, bu da cərəyan məhdudlaşdırıcı tədbirlərin kütləvi tətbiqinə şərait yaratmışdır.

Son illərdə yerinə yetirdiyi elmi tədqiqatlara bərk cisim, maye və qaz halında olan dielektrikların fizikası, elektrik qaz boşalmalarınnın tədqiqi, yüklü zərrəciklərin güclü elektrik sahələri ilə qarşılıqlı təsiri və elektrik veriliş xətlərində və elementlərində dalğa proseslərinin riyazi modelləşdirilməsi məsələləri daxildir.

Akademik A.M.Həşimov görkəmli elm təşkilatçısıdır. O, 2002-2009-cu illərdə Fizika İnstitutunun direktoru olmuş. Akademik A.M.Həşimov 2007-2013-cü illərdə AMEA-nın birinci vitse-prezidenti vəzifəsində çalışmışdır. Hazırda A.M.Həşimov Fizika İnstitutunda "Yüksək gərginliklərin fizikası və texnikası" laboratoriyasının müdiri, "Azərenerji" ASC-nin sədrinin müşaviri və texniki şuranın üzvü, eyni zamanda Azş ET və Layihə-Axtarış Energetika İnstitutunun rəhbəri vəzifələrində çalışır.

Arif müəllim elmi-tədqiqatla yanaşı pedaqoji fəaliyyətə böyük diqqət yetirir. Onun rəhbərliyi ilə 14 fəlsəfə doktoru və 4 elmlər doktoru dissertasiyaları müdafiə olunmuşdur. A.M.Həşimov 353-dən yuxarı elmi məqalələrin, patentlərin, 4 monoqrafiyanın, 10 kitabın müəllifidir.. Elmi və elmi-təşkilatçılıq nailiyyətlərinə görə A.Həşimov Əməkdar elm xadimi adına və Azərbaycan Dövlət Mükafatına layig görülüb.